Ayətullahul-Üzma Şeyx Məkarim Şirazi

Vəhy evinə yürüş

Əfsanə, yoxsa həqiqət?

Ayətullahul-ÜzmaŞeyx Məkarim Şirazi

Vəhy evinə yürüş

Əfsanə, yoxsa həqiqət?

Tərcümə etdi: Hacı Samir Ağayev

Hazırladı: Vüsal Əli

Vəhy evinə yürüş

Əfsanə, yoxsa həqiqət?

Vəhy evinə yürüş əfsanə yaxud həqiqət?

Bu yaxınlarda İranın sistan və Bəluçestan məntəqəsində İslam tarixindən xəbərsiz olan bir nəfər Peyğəmbərin (s) əziz qizi barəsində bir məqalə yazmişdir.Adin da "Fatiməyi Zəhranin(ə.s)Şəhadət əfsanəsi" qoymuşdur. Məqalədə O, Həzrətin fəzilətlərini qeyd etdikdən sonra onun şəhadəti və ona olunan hormətsizlik ikar olunur.Bəziləri də öz çıxişlarında bu tarixi fakti təkidlə inkar edir.

Məqalənin bir hissəsində İslam tarixi aşkar şəkildə təhrif olunduğu üçün bu təhrifi düzəltmək və əsl həqiqəti üzə çıxartmaq bizə vəzifə oldu məqsədimiz bəllidir.Hammi bilməlidir ki, İslam xaniminin şəhadəti inkar olunmaz tarixi bir faktdir.əgər onlar bu bəhsi açmasaydilar biz,indiiki, şəraitdə bu müvzuya toxunmazdıq .

Bu yazıda nəzərdə tutdyğumuz mövzular aşağadakilardan ibarətdir.

1-Həzrət zəhra (s.ə)Rəsulullahin (s)dilindən

2-Quran və sünnədə xanim Zəhranin (s.ə)evinin ehtirami.

3-O Həzrətin (s.ə) evinə hörmətsizlik.

Ümid varıq ki, bu üç mövzu aydınlaşandan sonra məqalənin yazıçısı həqiqət qarşısında təslim olub peşman olacaq və etdiyi bu səhvini düzəldəcəkdir. ən əhəmiyyətli nöqtə bundadır ki, yazimizin bütün mətləbləri əhli sünnənin ən məşhur mənbələrindən götrülmüşdür.

1. Həzrət Zəhra (s.ə)Rəsulullah (S)dilindən Peyğəmbərin (s) əziz qızının çox böyuk bir məqamaı vardı. Rəsulullahən (s) qızı barəsində buyirmuşdır: «Fatimə (s.ə) bədənimin bir parçasidir.

Onun qəzəbləndirən məni qəzəbləndirmişdir»Hədisin mənbələri: Fəthul-Bari fi-şərhi səhihil-buxari, cild 7.səh 84.Buxari özu də bu hədis ″əlamətun-nubuvvət ″Kitabi .cil 6, səh.491-də.və′′Məğazı′′kitabının axirlarında cil.8, səh,110-dagətirmşdir)

Aydındır ki, Peyğəmbərin (s) qəzəblənməsi Onun əziyyət və narahatliğına səbəbdir.Belə bir şəxsin cəzası Qurani-Kərimdə bucür açiqlanir :

«Rəsulullah əziyyət vernləri dərdli bir əzab gözləyir» (Tövbə surəsi-61)

Həzrət Zəhranin (s.ə)Fəzilət və ismətinə(məsumluğuna)bundan daha möhkəm bir dəlil ola bilərmi ki,Peyğəmbər (s) digər hədisində xani Zəhranin(s.ə)razılığını Allah raziliği, narazılığı isə Allahın narazılğı kimi tanitdirir.

«Qizim Fatimə! həqiqətən Allah sənin qəzəbinə qəzəblənir və razılığına razı olur»

(hədisin mənbəsi müstədrəkul Hakim c.3 səh .154, Məcməuz zəvaid c.9,səh 203,)

Qeyd:Hakim ″Mustədrək.″ kitabinida buxari və Müslimin,hədisin səhihliyində lazım bildiyi şərtlərə malik hədislər gətirmişdir..

Bu cür uca məqamı olduğu üçün O Xanım (s.ə)dünya qadınlarını sərvəri və onların seyidəsidir .Peyğəmbər Əkrəm(s) Onun barəsində buyurur: «Ey Fatimə!Razı deyilsənmi ki, dunya xanımlarının ağası ,bu ümmətin xanımlarının ağası və möminə xanımların ağası olasan »

(mənbəsi: Hakim Nişapurinin ″Müstədrəkus-səhiheyn″ kitabı cild.3, səh 156.)

2- Quran və sünnədə Xanim Zəhranın (s.ə) evinə ehtiramı.

Mühəddislər (hədis alimləri)qeyd edilər ki, mübarək Nur surəsinin 36-cı ayəsi Peyğəmbər (s) nazil olanda O Həzrət (s)bu ayəni məsciddə tilavət etdi: «(Allahin nuru) O evlərdədir ki, Allah icazə vermişdir O evlərin məqamı ucalsın Allahın adi orada zikir olunsun »

Bu zaman bir nəfər qalxib dedi: Ya Rəsulullah! Bu cur əhəmiyyətli olanevlərdən məqsəd hansı evdir?

Peyğəmbər (s) buyurdu: bu evlərdə məqsəd peyğəmbərlərin evləridir !

Bu an Əbu Bəkr durub Əli(ə) ilə Fatimənin (s.ə)işarə edib dedi:«bu evdə həmin evlərdəndirmi?» Həzrət (s) cavabında buyurdu: Bəli bu o evlərin ən üstünüdür.

(mənbəsi: Durrul-mənsur .cil 6. Səh 203 .Nur surəsinin təfsirində Ruhul -məani cil.18 , səh.174,)

Əziz Peyğəmbər (s) doqquz ay qızımın evinin qapisinda dayanar , ona və əziz həyat yoldaşina salam verərdi . Daha sonra Əhzab surəsinin 33-cü ayəsini oxuyardı :«Həqiqətən Allah ,siz əhli-beytdən bütün çirkinlikləri təmizləmək və sizi pak etmək istəyir»

(mənbə : Durrul-mənsur .cil,6. Səh,606.)

İlahi nurunun mərkəzi olan və Allahin yüksəlməsinə əmr etdiy bir ev çox böyük bir ehtirama malikdir.

Bəli, içində əshab-kisa (ali əba) olan və Allahin əzəmətlə yad etdiyi bir evə ehtiram eləmək bütün müsəlmanlarin borcudur.

İndi görək Peyğəmbər (s)dən sonra bu evin ehtirami nə dərəcədə saxlanildi? Bu evin ehtiramını necə sindirdilar .özləri də aşkar şəkildə bunu necədə etiraf edirlər ? hörmətsizlik edənlər kimlər id i və hədəfləri nə idi ?

3-Xanim Zəhranin (s.ə) evinə hörmətsizlik.

Bütün bu təkidlərə baxmayaraq, təəssüflər olsun ki, bəziləri O, evin hörmətini görmək istəmədilər ,onun hörmətini sindirdilar . Bu elə məsələ deyil ki, üstünü örtmək olsun.

Həzrət Zəhranin(s.ə) evinə hörmətsizlik məsələsi və ondan sonrakı hadisələr tarixi Faktlardan biridir. Əfsanə deyil. Biz bu barədə əhli-sunnə kitablarindan hədislər nəqil edirik ki,məsələ aydin olsun. Düzdür ,xilafət əsrində Əhli-beytin (ə)fəzilətlərinin yayilmasina çox güclü maniələr var idi, amma "bir şeyin həqiqət olması onu qoruyandır" prinsip bu həqiqəti tarix və hədis kitablarinda canli şəkildə qorudu. Biz mənbələri xronoloji ardicilliqla qeyd edirik

1-İbn Əbi Şeybə, əhli sünnənin məşhur mühəddisi ′Əl-musənnif′ kitabi ″Əl-Musənnif ″ kitabinin müəlifi Əbu Bəkir ibn Əbi Şeybə (159-235 h.q) səhih sənədlə bu cür nəql edir:″Rəsulullahdan (s) sonra insanlar Əbu Bəkrə beyət etdikdə Əli (ə) və Zübeyir Rəsulullahin qızı Fatimənin yanına gəldilər ,onunla bu iş barədə məşvərət etdilər . Bu xəbəri Ömər ibn xəttaba çatdiqda çıxıb Fatimənin yanına gəldi və dedi: Ey Rəsulullahın qızı and olsun Allaha bizim üçün atandan , atandan sonra isə səndən daha sevimlisi yoxdur .And olsun allaha , əgər bunlar sənin evində toplaşsalar mən, evi onların üstünə yandırılmasına əmr edərəm , və sənin yanımızdakı hörmətin mənə bu işdə mane olmayacaqdır .Ömər getdikdən sonra onlar Fatimənin yanina gəldilər .Fatimə onlara dedi: bilirsiniz ki, Ömər yanima gəlmişdir Allaha and içib ki, əgər sizin evdətoplaşmaqınız bir daha təkrar olarsa evi sizin üstünüzə yandiracaqdır,and olsun Allaha ki,and içdiyi işi yerinə yetəcəkdir (mənbəsi: İnb Əbi Şeybənin ˛Müsənnif˛ kitabı cild 8.səh,572.″‹Əl-məğazi″kitabı) birdaha təkrar edirik ki,bu hədis Əl-musənnif kitabinda səhih sənədlə nəql olunmuşdur.

2-Bəlazurihli sünnənin başqa bir böyük mühəddisi Ənsabul-əşraf kitabindan. Məşhur yazıçı və böyük tarix kitabı ″Futhulbuldan″müəlifi Əhməd

Ibn Yəhya bin Cabir (vəfatı270) bu tarixi hadisəni ″əhşabul -əşraf ″bu cür nəql edir :Əbu Bəkr Əlinin (ə) ardica adan göndərdiki ,gəlsin beyət eləsin .Amma Əli(ə) beyət eləmədi. sonra Ömər əlinə məşəl odyandıan alıb hərəkət elədi:Qapıda Fatimə (s.ə)ilə üz-üzə gəldi. atimə (s.ə) dedi:ey Xettabin oğlu :görürəm evimi yandirmağa gəlmisən ? Ömər dedi:bəli ,bu iş atanın gətirdiyinə köməkdir! (mənbəsi:Ənsabul - əşraf cil.1, səh.586.çap :darul marif qahirə)

3-İbn Quteybə Əl-İmamət və siyasət kitabı Məşhur tarixçi Abdullah ibn Müslim bin Quteybə dinaveri (212-276) böyük ədəbiyyatşünas .İslam tarixinin görkəmli yaziçısı . Təvilu müxtələfilhədis , Ədəbul kitabi və s. Kitablarin müəllifidir. O, Əl- imamət vəssiyət kitabında yazir :Əbu bəkirə xəbər çatdi ki, onunla beyət etməkdən boyun qaçiranlar Əlinin (kərrəməllah vəchəh) evində toplaşıblar

O, "əl - imamət vəs - siyasət" kitabında bu cür yazır:

"Əbu Bəkrə xəbər çatdı ki, onunla beyət etməkdən boyun qaçıranlar Əlinin (kərrəməllah vəchəh) evində toplaşıblar. Öməri onların ardınca göndərdi. O, Əlinin (ə) evinə gəlib onları çağırdı. Onlar evdən çıxmadılar. Bu zaman Ömər odun gətizdirib dedi: and olsun Ömərin canı əlində olan Allaha, ya evdən çölə çıxın,

ya da evi içindəkilərlə birlikdə yandıracağam. Ömərə deyildi: ey əba Həfs (Ömərin küntəsidir). Peyğəmbərin (s) qızı Fatimə də bu evdədir. Dedi: Olsun!".

(mənbəsi əl - imamət vəs-siyasət, İbn Quteybə. Səh 12., çap: məktəbətun ticariyyətin Kubra, Misir).

İbn Quteybə rəvayətin ardını daha da yandırıcı üzücü şəkildə yazır:

"Daha sonra Ömər bir qrup insanla Fatimənin evinin qapısına gəlib qapını döydülər. Fatimə onların səsini eşidəndə uca səslə dedi: atacan! Ya Rəsuləllah! Səndən sonra Xəttabın oğlundan və Əbuquhafənin oğlundan bizə nə qədər müsibət yetişdi. Ömərlə birlikdə olanlar Zəhranın ağlamaq səsini eşitdikdə qayıtdılar. Lakin Ömər bir qrupla qaldı, Əli (ə) -ni evindən çıxardıb Əbu Bəkrin yanına apardılar. Ona "beyət et" dedilər. Əli (ə) dedi: Əgər beyət eləməsən nə olar? Dedilər: and olsun o Allaha ki, ondan başqa məbud yoxdur, sənin boynunu vurarıq".

Tarixin bu hissəsi, Şeyxəyni (Əbu Bəkr və Öməri) sevənlərlə çox ağır və xoşa gəlməzdir. Buna görə də bəziləri çalışıblar ki, bu kitabı İbn Quteybəyə nisbət verməsinlər. Halbuki, tarix fəndinin ustadı İbn Əbilhədid bu kitabı onun əsərlərindən bilir və ondan

tez-tez sitatlar gətirir. Təəssüflər olsun bu kitabı təhrif edib çap zamanı ondan bəzi hissələri çıxardıblar. Halbuki, həmin hissələr İbn Əbilhədidin "Nəhcul - Bəlağəyə" yazdığı şərhində gəlmişdir.

Fərkeli "kitabul - əlam" da bu kitabı (əl-imamət vəs - syasəti) İbn Quteybənin əsərlərindən hesab edib deyir: bəzi alimlər kitabın İbn Quteybəyə aid olmasını qəbul edirlər, başqasına aid olmasında isə şəkk - şübhə edirlər. (Mucəmul - mətbuatil - Ərəbiyyə, c.1. səh 212).

İlyas Sarkes də bu kitabı İbn Quteybənin əsərlərindən hesab edir.

(mənbə: Əl-Əlam, Zərkeli, c4, səh 137, çap: darul-elm lilmələyin, Beyrut)

4 - Təbəri və Tarix kitabı

Məşhur tarixçi Muhəmməd İbn Cərir Təbəri (vəfatı - 310) öz tarix kitabında vəhy evinə hörmətsizliyi bu cür bəyan edir:

"Ömər İbn Xəttab Əlinin evinə gəldi. Təlhə, Zübeyr və bir qrup mühacir də Əlinin evində idilər. Ömər üzünü onlara tutub dedi: and olsun Allaha, ya beyət etmək üçün evdən çıxın ya da evi sizin üzərinizə yandıracam. Zübeyr qılıncını siyirmiş halda Ömərin

üstünə gəldi, təsadüfən ayağı büdrədi və qılınc əlindən düşdü. Onlar bu zaman hücum çəkib onu tutdular".

(mənbə: Tarixi - Təbəri, c.2, səh 443, çap: Beyrut)

Bu hadisə göstərir ki, xəlifə üçün beyət almaq hədə-qorxu ilə olmuşdur. Amma bu cür beyətin hansı dəyərə malik olmasına gəldikdə isə bunu oxucuların öhdəsinə buraxıram.

5 - İbn Əbdu Rəbbih və "Əl-əqdul-fərid" kitabı

"Əl-əqdul - fərid kitabın müəllifi.İbn Əbdu Rəbbih Əndəlüsi adı ilə məşhur olan Şəhabuddin Əhməd (vafatı - 463) öz kitabında Səqifənin (Əbu Bəkrin seçildiyi yerin adıdır) tarixi barədə geniş bir bəhs açır. O, "Əbu Bəkrin beyətindən boyun qaçıranlar" başlığı altında yazır: ".

"...Əli Abbas və Zübeyr Fatimənin evində oturdular. Əbu Bəkr, onları Fatimənin evindən çıxartmaq üçün Ömər İbn Xəttabı göndərdi. Əbu Bəkr Ömərə dedi: Əgər boyun qaçırtsalar onlarla vuruş. Ömər İbn Xəttab od götürərək evi onların üstünə yandırmaq üçün yola düşdü. Bu zaman Fatimə ilə üz-üzə gəldi. Peyğəmbərin (s) qızı dedi: ey Xəttabın oğlu! Evimizi yandırmaq üçün gəlmiəsn? Ömər dedi: bəli, amma

ümmət kimi siz də bu işə (beyətə) daxil olsanız, sizinlə işim olmaz ".

(Əl-Əqdul - fərid, cild 4, səh 93. çap: Məktəbətu Hilal)

Buraya qədər bu hörmətsizliyi səmimi şəkildə etiraf edir. İkinci hissədə isə bu bəd niyyətə don geyindirmək istəmişdir. İndi bunu bəyan edək; heç vaxt təsəvvür olunmamalıdır ki, onların bu hədə-qorxusundan məqsədləri Əlini (ə) və yoldaşlarını beyətə məcbur etmək olmuşdur. Əslində bu hədə-qorxunu həyata keçirməzdilər.

Yürüş həyata keçdi!

Buraya nəql etdiklərimiz alimlər Xəlifə və dostlarının bəd niyyətlərinə işarə etmişlər. Bu qrup alimlər faciənin ardını aşkar şəkildə qeyd eləməyi ya istəməyiblər ya da edə bilməyiblər. Halbuki, başqaları faciənin əslini yəni evə yürüşü qeyd ediblər. İndi Həzrət Fatimənin (s.ə) evinə yürüş və hörmətsizliyi əks etdirən mənbələri qeyd edək. (Əlbəttə bu hissədə də mənbələri xronoloji tərtiblə qeyd edirik):

6 - Əbu Ubeyd və "Əl-əmval" kitabı

Əbu Ubeyd Qasım İbn Salam (vəfatı - 224) əhli sünnə fəqihlərinin etimad etdiyi "Əl-əmval" kitabında yazır. "Əbdurrəhman ibn Ovf deyir:"Əbu Bəkr xəstələnəndə

yanına getdim. Çoxlu söhbətdən sonra dedi: kaş ki, üç şeyi yerinə yetirməyəydim, üç şeyi isə yerinə yetirəydim. Həmçinin, üç şeyi də Peyğəmbər (s)-dən soruşaydım.

Yerinə yetirdiyim üç şeydən biri budur ki, kaş ki, Fatimənin evinin hörmətini sındırmayaydım, gərək bu işi tərk edəydim. Baxmayaraq ki, evin qapısı müharibə üçün bağlanmışdı. Amma mən bu işi görmüşəm.

(mənbə: "Əl-əmval" kitabı səh.144, çap: Beyrut. İbn Əbdu Rəbbih "Əl-əqdul-fərid"c.4. səh 93-də onu nəql etmişdir).

Əbu Ubeyd buraya çatanda "Fatimənin evinin hörmətini sındırmayadım. Gərək bu işi tərk edəydim" cümləsinin əvəzinə deyir: "Kəza və kəza" yəni "vəs, vəs"və bildirir ki, mən bunu nəql etmək istəmirəm! Əbu Ubeyd məzhəbi təəssübkeşlik ya başqa səbəb üzündən həqiqəti nəql etməkdən boyun qaçırır. Amma "əl-əmval" kitabının təhqiqatçıları kitabın dərkənarında deyirlər: qeyd olunmayan cümlələr. "Mizanul-etidal" kitabında (yuxarıda qeyd olunduğu kimi) gəlmişdir. Bundan əlavə Təbərani öz "Möcəmində", İbn Əbdu Rəbbih "əl - əqdul - fərid"də və başqaları qeyd olunmayan cümlələri gətirmişlər. (Diqqət edin!)

7 - Təbərani və "əl-möcəmul-kəbir" kitabı.

Fəhəbinin "Mizanul - etidal" kitabı c 2. səh. 195-də mötəbər bildiyi Əbulqasım Süleyman ibn Əhməd Təbərani (260-360 h.q.) dəfələrlə çap olmuş "Əl-cacəmul-kəbir" kitabında Əbu Bəkr, onun xütbələri və vəfatı barədə danışarkən deyir : Əbu Bəkr öləndə bir neçə şeyi arzu etdi. O, dedi: kaş ki, üç şeyi etməyəydim, üç şeyi edəydim və üç şeyi Peyğəmbər (s)-dən soruşaydım: etməməyimi arzu etdiyim üç şey bundan ibarətdir: kaş ki, Fatimənin evinin hörmətini sındırmayaydım, bu işi tərk edəydim....

(mənbə: Əl-Mocəmul - kəbir, Təbərani, cild 1, səh 62, hədis 34, Həmdi Əbdulməcid Sələfinin təhqiqi)

Bu ifadələr aydın şəkildə göstərir ki, Ömərin hədə-qorxulu həyata keçib və evin qapısını zor ilə (yaxud yandırmaq ilə) açıblar.

8 - Yenə də İbn Əbhu Rəbbih və "ə-əqdul-fərid" kitabı

"Əl-əqdul-fərid" kitabının müəllifi İbn Əbdu Rəbbih Əndəlusi (vəfatı 463) öz kitabında Əbdurrəhman İbn Ovfdan nəql edir: Əbu Bəkr xəstə olanda onun yanına getdim. O, dedi: kaş gərək üç şeyi yerinə yetirməyəydim. Onlardan biri də budur ki, kaş gərək Fatimənin evinin hörmətini sındırmayaydım, baxmayaraq ki, qapını müharibə üçün bağlamışdılar.

(mənbə: əl-əqdul-fərid c.4, səh 93, çap: məktəbətul - hilal)

Gələcək bəhslərimizdə də Xəlifənin bu sözünü nəql edən digər şəxsiyyətlərin adlarını və ibarətlərini qeyd edəcəyik.

9 - Nəzzamın "əl-vafi bil-vəfiyyat" kitabındakı sözləri Nəzm və Nəsr sahəsində görkəmli yeri olduğu üçün "Nəzzam" adı ilə məşhur olan İbrahim ibn Səyyar Nəzzam Mötəzibi (160-231) çoxlu kitablarda Fatimənin (ə.s) evində toplaşmadan sonrakı hadisələri nəql edir. O, deyir: Ömər beyət günü Fatimənin qarnına zərbə vurdu. Onun bətnindəki Möhsün adında övladı düşdü.

(mənbə: əl-vafi bil-vəfiyyat c.6. səh 17 hədisin nömrəsi 2444. "Əl-miləl vən-nihəl" Şəhristani, c1., səh 57. çap Darul mərifə, Beyrut. Müraciət olunsun: "Buhusun fil-miləli vən-nihəl " kitabı Nəzzamın tərcüməsinə)

10 - Mubərrid "Kamil" kitabında

İbn Əbilhədid yazır: tanınmış ədib və yazıçı, məşhur əsərlərin müəllifi Muhəmməd bin Yəzid bin Əbdul-Əkbər Bağdadi (210-285) "Əl-Kamil" kitabında Xəlifənin arzularını Əbdurrəhman ibn Ovfdan belə nəql edir: "Kaş gərək Fatimənin evinin hörmətini

sındırmayaydım və bu işi tərk edəydim. Baxmayaraq ki, qapı müharibə üçün bağlanmışdı".

(mənbə. Nəhcul -Bəlağənin şərhi, ibn Əbilhədid c2, səh 46-47, çap: Misir)

11- Məsudi və "Murucuz-Zəhəb" kitabı

Məsudi (vəfatı 325)"Murucuz-zəhəb" kitabında yazır. Əbu Bəkr ehtiraz halında (can verəndə) olanda belə dedi: "Kaş gərək Fatimənin evinin hörmətini sındırmayaydım. O, bu barədə çoxlu sözlər dedi".

(mənbə: Murucuz - zəhəb c2, səh 301, çap: Darul-Əndəlus, Beyrut).

Məsudinin Əhli-beytə nisbət, müvafiq meylləri olmasına baxmayaraq burada Xəlifənin sözünü nəql etməkdən çəkinir və kinayə ilə bu sözləri rədd edir. Əlbəttə səbəbini Allah bilir və əlbəttə ki, Allahın bəndələri də təxminən bilirlər.

12 - Zəhəbi və "Mizanul - etidal" kitabı

Zəhəbi "Mzanul-etidal" kitabında Muhəmməd ibn Əhməd Kufiy-Hafizdən nəql edir ki, İbn Əbi Darem Mühəddis Kufi adı ilə məşhur olan Əhməd ibn Muhəmmədin (vəfatı 357) məhzərində bu xəbər oxundu: Ömər Fatiməyə bir təpik vurdu. Fatimənin qarnındakı Möhsün adında övladı düşdü.

(mənbə: Mizanul-etidal, c 1. səh 139, nömrə - 552)

13 - Əbdul - Fəttah, Əbdul Məqsud və "əl-imam Əli" kitabı o, vəhy evinə hücumu öz kitabında iki yerdə gətirmişdir. Biz birini nəql etməklə kifayətlənirik:

"Ömər dedi: and olsun o Allaha ki, Ömərin canı onun əlindədir, ya gərək evədn çıxsınlar, ya da evi içindəkilərlə birlikdə yandıracağam. Allahdan qorxan və Rəsulullahdan sonra onun hörmətini qoruyan bir qrup adam dedi: ey əba Həfs!" Fatimə bu evdədir. Ömər dərhal qışqırdı ki, olsun! Yaxınlaşıb qapını döydü. Sonra qapını sındırıb içəriyə girdi. Əli (ə) qabağa çıxdı. Evin girəcəyində Zəhranın sədası ucaldı. Bu, onun fəryad səsi idi (kömək istəmək fəryadı).

(mənbə: Əbdul-Fəttah Əbdul-Məqsud, Əli ibn Əbitalib kitabı c 4, səh 276-277)

Bu bəhsi Muqatil ibn Ətiyyənin "Əl-imamət vəl-xilafət" kitabında nəql etdiyi başqa bir hədislə xətm edirik. (hərçənd ki, hələ demədiklərimiz çoxdur!)

O, bu kitabda bu cür yazır: Əbu Bəkr özü üçün camaatdan hədə-qorxu, qılınc və zorla beyət aldıqdan sonra Öməri, Qonfuzu və bir qrup adamı Əlinin (ə) və Fatimənin (s.ə.) evinə göndərdi. Ömər odun yığıb Fatimənin evinin qapısını yandırdı.

(mənbə: əl-imamət vəl-xilafət, səh 160-161, Muqatil ibn Ətiyyə. Bu kitab, Qahirənin "eynuş-şəms" universitetinin ustadı Dr. Hamid Davudun müqəddiməsi ilə çap olunmuşdur. Çap: Beyrut, Muəssisətul-bəlağ)

Bu rəvayətdə elə ifadələr var ki, qələm onları yazmaqda acizdir.

Nəticə: Əhli-sünnədən bu acı hadisəni nəql edən bu qədər mənbələr ola-ola yenə də onlardan bəziləri "Şəhadət əfsanəsi" ifadəsini işlədir və bunu qondarma hesab edirlər! Əgər onlar bu həqiqətləri inkar etməkdə israr etməsəydilər bəhsi bu qədər uzatmazdıq.

Ümidvarıq ki, bu həqiqətlər yatmışları oyadar, tarixi həqiqətləri təəssübkeşlik laylarında gizlədib onları inkar etməzlər.

Vəma ələyna illəl - bəlağ

(Bizə yalnız çatdırmaq vacibdir)

Tərcümə etdi Hacı Samir Ağayev

Ədəbiyyat

1. “Fəthul-Bari fi şərhi Səhihi-Buxari”, 7-ci cild, səh. 84; həmçinin Buxari bu hədisi “Əlamatun-nübüvvət” bölməsində: 6-cı cild, səh. 491-də; “Məğazi” kitabının axırlarında: 8-ci cild, səh. 110-da qeyd etmişdir.

2. “Tövbə” surəsi, ayə 61.

3. “Müstədrək”, Hakim Nişapuri, 3-cü cild, səh. 154; “Məcməuz-zəvaid”, 9-cu cild, səh. 203. Hakim “Müstədrək” kitabında elə hədisləri qeyd etmişdir ki, Buxari və Müslimin hədisin səhihliyində lazım bildiyi şərtlərə malikdir.

4. “Müstədrək”, Hakim, 3-cü cild, səh. 156.

5 “Nur” surəsi, ayə 36: “(Allahın nuru) elə evlərdədir ki, Allah onlara icazə vermişdir ki, onların məqam və mənzilətləri yüksəlsin və adı onlarda yad olunsun.”

6. Peyğəmbəri-əkrəm (səlləllahu əleyhi və alih) فى بُيُوتٍ أَذِنَ اللهُ أَنْ تُرْفَعَ وَ يُذْكَرَ فِيهَا اِسْمُهُ ayəsini oxuduqda bir nəfər ayağa qalxıb dedi: “Ya Rəsuləllah! Bu evlər hansılardır?” Həzrət buyurdu: “Peyğəmbərlərin evi.” Əbubəkr ayağa qalxıb Əli və Fatimənin evinə işarə edərək dedi: “Ya rəsuləllah! Bu ev onlardandırmı?” Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: “Bəli! (Həm də) onların ən fəzilətlisidir.” “Əd-durrul-mənsur”,

6-cı cild, səh. 203, “Nur” surəsinin təfsiri. “Ruhul-məani”, 18-ci cild, səh. 174.

7. “Əd-durrul-mənsur”, 6-cı cild, səh. 606.

8. “Əhzab” surəsi, ayə 33.

9 .“Əl-müsənnəf”, İbn Əbi Şeybə, 8-ci cild, səh. 572, “Məğazi” kitabı.

10. “Ənsabul-əşraf”, 1-ci cild, səh. 586, “Darul-məarif” çapı, Qahirə.

11. “Əl-əlam”, Zərkuli, 4-cü cild, səh. 137.

12. “Əl-imamətu vəs-siyasət”, İbn Qüteybə, səh.12, “Misirin “Məktəbətut-ticariyyətil-Kübra” çapxanası.

13. Yenə orada, səh. 13.

14. “Mocəmul-mətbuat əl-ərəbiyyə”, 1-ci cild, səh. 212.

15 .“Əl-əlam”, Zərkuli, 4-cü cild, səh. 137, Beyrut, “Darul-elm” çapı.

16. “Tarixi Təbəri”, 2-ci cild, səh. 443, Beyrut çapı.

17. “Əqdul-fərid”, 4-cü cild, səh. 93, “Hilal” çapxanası.

18. “Əl-əmval”, 4-cü vərəqaltı haşiyəsi, “Nəşri kulliyatil-Əzhəriyyə” çapı, səh. 144, Beyrut; İbn Əbdi

Rəbbih də “Əqdul-fərid”, 4-cü cild, səh. 93-də onu nəql etmişdir. Bu, sonradan qeyd olunacaqdır.

19. “Mizanul-etidal”, 2-ci cild, səh. 195.

20. “Əl-möcəm əl-kəbir”, Təbərani, 1-ci cild, səh. 62, hədis 34, Həmdi Əbdul-Məcid Sələfinin təhqiqi.

21. “Əqdul-fərid”, 4-cü cild, səh. 93, “Hilal” çapxanası.

22. “Əl-vafi bil-vəfəyat”, 6-cı cild, səh. 17, nömrə 2444; “Əl-miləlu vən-nihəl”, Şəhristani, 1-ci cild, səh. 57, “Darul-mərifət” çapı, Beyrut. Nəzzamın tərcümeyi-halında “Buhusun fil-miləli vən-nihəl” kitabına baxın: 3-cü cild, səh. 248-255.

23. "Nəhcul-bəlağə”nin şərhi, İbn Əbil-Hədid, 2-ci cild, səh. 46-47, Misir çapı.

24. “Murucuz-zəhəb”, 2-ci cild, səh. 301, “Darul-Əndolos” çapı, Beyrut.

25. “Mizanul-etidal”, 1-ci cild, səh. 139, nömrə 552.

26. Əbdul-Fəttah Əbdul-Məqsud, “Əli ibn Əbu Talib”, 4-cü cild, səh. 276-277.

27. “Əl-İmamətu vəl-xilafət”, səh. 160-161. Bu, Müqatil ibn Ətiyyənin kitabıdır ki, Doktor Hamid Davudun müqəddiməsi ilə çap olunmuşdur. O,

Qahirənin “Eynuş-şəms” universitetinin müəllimidir (Beyrut çapı, “Əl-bəlağ” muəssisəsi).